*İradə xanımla söhbət həm də görkəmli mərhum şair Məmməd Arazın doğum günü ərəfəsinə -14 oktyabra təsadüf etdi. Beləliklə, ilk suallar İradə xanıma mərhum atasıyla bağlı verildi.*
*Adalet.az İradə Tuncayın Teleqraf.com-a müsahibəsini təqdim edir.*

# İradə Tuncay: "Həyatımla bağlı yanlış təsəvvürlər var"

(Əvvəli ötən sayımızda)

**Nemət Orucov: Yəni haqq qazandırmalıyıq ki, özünü müdafiə eədi?**

-Biz çox siyasi söhbətlərə getdik. Qorbaçov Qərbin adamı idi, əvvəlcədən "stavka" olunmuşdu, hakimiyyətə məhz onu gətirdilər. Siyasi büronun qərarları qüvvələr nisbətinə uyğun çıxarılır, kimin adamı güclüdürsə, onu yuxarı başda oturdurdular. Qərb SSRİ-ni dağıtmaq üçün Qorbaçovun hakimiyyətə yolunu açdı və o, öz missiyasını yerinə yetirdi. Həmin dövrdə oxşar hadisələr çox oldu, imperiya ordusu Gürcüstana, Latviyaya, Litvaya girdi, hamısından əvvəl Qazaxıstan hadisələri baş verdi. Bu, xalqı narazı salmaq üçün bir vasitə idi.

Mən Bakıdakı 20 yanvar hadisələrini gözümlə görmüşəm. Hər hansı dövlətin sərhədləri təhlükəyə düşəndə o müvafiq addımlar atır. Naxçıvanda İranla sərhəddəki məftilləri sökdülər. SSRİ-ni bir kənara qoyaq, İran ölüb bəyəm? Bu hadisələr hamısı hazırlandı. Dövlət başçısı bilərəkdən mərkəzi hakimiyyətə insanlarda nifrət yaratmaq istədi. Halbuki yığışan insanları su maşını ilə dağıtmaq olardı.

Dövlət öz xalqına xəyanət elədi. Bunu ayrı-ayrı şəxslər elədilər. Müstəqilliyin, bayrağımızın uşaqlıqdan həsrətini çəkmişəm. Ancaq bizim kimi balaca ölkənin müstəqil yaşaması asan deyil. Mütləq kimsə ətrafında olmalıdır.

**Mövlud Mövlud: Böyük dövlətlərdən hansının yanımızdan olmasını istərdiniz? Yanımızda kim olsa, müstəqilliyimiz üçün daha təhlükəsiz olar?**

-Süleyman Dəmirəlin məşhur sözü var: siyasətdə dün dündür, bu gün bu gün... Bu gün bizi qoruyacaq kim varsa, o, mənim üçün məqbuldur. Heç kim latın əlifbasını bilməyəndə, türkcə oxumayanda, uşaqlıqda öyrənib oxuyurdum. Məlum hadisə olanda bizi ruspərəstlikdə ittiham etməyə başladılar. Mən haqqın tərəfindəyəm. Bu gün nə mənə xeyirdisə, qoy o olsun. Məşhur Bizans siyasəti anlayışı var, Bizans son dönəmlərində çox zəifləyir və siyasi manevrlər etməyə başlayır. Kim güclüdürsə, onun tərəfində dayanır. Dünyanın qüdrətinə qarşı çıxmaq mümkün deyil.

**Nemət Orucov: Siz uzun müddətdir Bakıda yaşayırsınız. Sovetin Bakısını da görmüş adamsınız. Sizcə, Bakı 80-ci illərdə yaxşıydı, yoxsa indi? Nəzərə alsaq ki, 80-ci illər Bakısında ruslar, ermənilər, yəhudilər daha çox idi.**

-Valideynlərim danışırdılar ki, onlar 50-ci illərdə Bakıya oxumağa gələndə burda azərbaycanlıların sayı az idi. Azərbaycanlıların böyük əksəriyyəti Bakı kəndlərində yaşayırdı. Bakının mərkəzinə azərbaycanlı axını 50-ci illərdən sonra burda təhsil almaq üçün gələn tələbələrlə baş verdi. Burda fabrik-zavodlar açıldı, işə düzəldilər və təbii ki, bu bir siyasət idi. Bunun sayəsində şəhərin balansı azərbaycanlıların xeyrinə dəyişdi.

Şəhərə daha böyük axın Heydər Əliyevin hakimiyyətə gəlişindən sonraya təsadüf etdi. Zavodların tikilişi və başqa tikinti işləri buna şərait yaratdı.

İmperiya siyasətində əhali monoetnik olmur. Fikir verin, Osmanlı imperiyasında nə qədər millətlər yaşayıb. Ona görə İstanbul ən kosmopolit şəhərlərdən biridir.

Monoetnik mühit yaxşı hal deyil. Millətlərin rəngarəngliyi mozaika yaradır və bu mülki həyatı maraqlı edir. Müxtəlif millətlərin bir yerdə, dinc yaşamasının nəyi pisdir? Sovet hökuməti çökdü, müharibə oldu, bundan nə qazandıq? Nə biz, nə də ermənilər fayda götürdü. Bu prosesdə ermənilər sadəcə alətdir, vasitədir. Hərçənd erməninin yaxşısı da var pisi də... Müharibə isə öz qanunları ilə baş verir. O qanunlara da uymalısan.

Amma indi deyə bilmərəm ki, Bakı o vaxt yaxşı idi, yoxsa indi daha yaxşıdır. Tikinti işlərinə baxsaq, deyə bilərik ki, bəli, Bakı dünyanın qəşəng şəhərlərindən biridir.

**Nərgiz Cavadzadə: Son günlərin gündəmi futboldur. Futbolla aranız necədir?**

-Mən futbola məcbur baxıram. Çünki evdə Aqil baxır. O baxanda yanında oturmalıyam. Başqa yerə gedəndə narazılıq edir. Onunla bərabər azarkeşlik etməliyəm, dediyi sözlərə, söyüşlərə qulaq asmalıyam. Aqil müəllim futbolu çox gözəl bilir. Onunla bərabər bu 35 ildə mən də futbolu öyrənmişəm.

**Nərgiz Cavadzadə: Aqil müəllim demişdi ki, "Qarabağ"ın oyununa baxanda həyəcanından televizoru söndürür, hətta üstünə təcili yardım da gəlir.**

-Futbola baxanda çox həyəcanlanır, ürəyi bərk-bərk döyünür. Ona görə bəzən dramatik məqamlarda televizoru söndürür. Əvvəllər belə deyildi, yaşı artdıqca həyəcana dözə bilmir. O vaxtlar oyunları gedib stadionda izləyərdi.

**Nərgiz Cavadzadə: Bəs sizi heç stadiona aparıb?**

-Bir dəfə söz vermişdi ki, aparacaq. Amma sonra kişilər narazılıq ediblər ki, xanım gəlsə söyüş söyə bilməyəcəyik. Ona görə gedəsi olmadım.

**Sevinc Fədai: Son vaxtlar səyahətə daha çox vaxt ayırırsınız. Dünyanı görməyə, araşdırmağa meyllisiniz.**

-Mən getdiyim yerlərdə istirahət eləmirəm, demək olar ki, bütün günü ora-bura qaçıram. Aktiv istirahəti sevirəm. Getdiyim yerdə bir dəqiqə də oturmuram.

**Mövlud Mövlud: Hərənin bir istirahət anlayışı var. Adam var şopinq zamanı istirahət edir.**

-Şopinqdən heç xoşum gəlmir. Amma deyirlər, bəzi qadınlar şopinq zamanı dincəlir. Ona şopinq-terapiya da deyirlər. Mən isə mağazaya girdim, gözüm tutanları, xoşuma gələnləri alıram, çıxıram.

**Nərgiz Cavadzadə: Çox zövqlü geyinirsiniz.**

-Sizə deyim ki, mən çox bahalı geyinmirəm. Sadəcə özümə yaraşanı seçə bilirəm. Zövq deyək ...Atam Moskvada oxuyanda biz bir müddət orda yazıçılar yataqxanasında yaşamışıq. O zaman çox balacaydım. Anamın dediyinə görə, balaca, şirin qız olduğuma görə SSRİ dövrünün məşhur yazıçılarının hamısı məni qucağında gəzdirirmiş. Mən də onları seçirəmmiş. Qəşəng olan, qəşəng geyinən yazıçıların qucağına daha tez gedirəmmiş. Yəni zövqüm o vaxtdan var.



Tarixi gözəl bilirəm. Ən diqqətlə oxuduğum fənn tarix olub. O vaxtlar xəritədə gördüklərimi indi gedib canlı görürəm. Və bu hiss mənə çox maraqlı gəlir.

Strasburqda "Notrdam kilsəsi"nə getmişdim. Bilirsiniz də "Notrdam" Məryəm ana məbədləri deməkdir. O məbədlərdən Milan və Parisdə də var. Memarlıq etibarı ilə bu məbədlər bir-birilərinə çox bənzəyirlər. Amma mən Strasburqda olan kilsənin hər xırda fraqmentinə heyranlıqla baxırdım. Heykəltəraş onu necə incəliklə işləyib...

Avropanı gəzərkən başa düşdüm ki, niyə Şərq sonralar Qərbdən geridə qalıb. Şərq rəssamlığı, memarlığı inkişaf etdirə bilmədi. Biz perspektiv hissini özümüzdə inkişaf etdirə bilmədik. Deyirlər ki, İstanbulda tikilmiş məşhur camilərin hamısı dönmə yunanlar düzəldiblər. Adını qoyublar ki, islamı qəbul ediblər. Biz söz deyim, insan dinini dəyişə bilməz. Bir şey ki, uşaqlıqdan sənin qanına hopur, onu necə dəyişə bilərsən? Mən qorxanda "bismillah" deyirəm. Bunu nənəmdən, anamdan eşitmişəm və elə də nəvələrimə öyrədirəm. İndi bundan sonra qorxanda xaç çəkəcəm? Yox. Boynumdan xaç assam da mən xristian ola bilmərəm. Din insanın içinə məişətlə gəlir. Dindar deyiləm, namaz qılıb, oruc tutmuram, amma Allaha bağlı biriyəm. Ona görə də indi hansısa ritualların qadağan edildiyini eşidəndə mənə qəribə gəlir.

Avropada çox olmuşam, hər yerdə kilsə var və bütün adamlar kilsəyə ianə verirlər. Əgər ianə vermirsənsə sənin ölün ortalıqda qalır. Qayda budur. Hər yarım saatdan bir kilsə zəng çalır, hər saatın tamamında da saatın olduğu qədər çalır. Və heç kim narazılıq etmir ki, kilsənin zəngi məni yatmağa qoymur.

**Zahid Nurəliyev: Avropa ölkələrində turistlərin ən çox getdiyi yerlərdən biri kilsələrdir. Amma bizimkilər Avropaya, yaxud hansısa müsəlman ölkəsinə gedəndə nadir hallarda yollarını məsciddən, kilsədən salarlar.**

-Mən İstanbulda bütün cameləri gəzmişəm.

**Zahid Nurəliyev: Əksəriyyəti nəzərdə tuturdum.**

-Bizimkilər Avropada olanda bəyəm harasa gedirlər?

**Mövlud Mövlud: Məncə, sizdə razılaşarsınız ki, Avropada din milli hadisədir. Biz dinimizi milli hadisəyə çevirə bilməmişik.**

-Bir daha deyirəm. Bizim memarlığımızın, rəssamlığımızın inkişaf etməməyi bizi geridə qoyub. Onlar dayanmadan tikirlər, inkişaf edirlər. Biz bir torpağın hissəsiyik. Bizi ordan qopardıblar. Bura böyük şəhərlər məskəni olmayıb.

**Nərgiz Cavadzadə: İstirahət edəndə kimləri dinləyirsiniz?**

-Sezen Aksu deyəcəm, deyəcəklər, ermənipərəstdir. Ümumilikdə rus, türk, Avropa mahnılarını çox dinləyirəm. Bizdən Xumar Qədimovanı çox bəyənirəm. Bizim də gözəl sənətkarlar olub. Bu gün ölkədə toydan başqa sənaye olmadığına görə musiqi də ancaq toya xidmət edir. Gözəl mahnılarımızı toy üslubunda oynamaq üçün oxuyurlar. O gün görürəm, Polad Bülbüloğlunun mahnılarını toy üslubunda işləyiblər. Dəhşət... Çox təzadlı ölkəyik. Həmişə zəmin, istedad olub, fərdlər yetişib. Baxın, 60-cı illərdə incəsənətdə böyük intibah dövrü yaşadıq. Fikrət Əmirovun əsərlərini Boston Simfonik orkestri ifa edirdi. Bu təbii ki, kiçik xalqlara böyük dövlətlərin diqqət siyasətidir, amma əsərin özü də möhtəşəm olmalıdır, layiq görülməlidir.

Biz yalnız heykəltəraşlıqda gürcülərdən geri qalırıq. Amma rəssamlığımız çox güclüdür. Dediyim kimi təzadlı ölkəyik... Həm müstəmləkə altında olmuşuq, həm tarixi qopmalarımız çox olub, sonra bərpa prosesinə, yeni rejimə uyğunlaşmaq və bunun içində də istedadlı insanların yetişməsi...

Azərbaycanda sənaye inkişaf etməlidir, iqtisadiyyat güclü olmalıdır. Bu gün ölkədə işlək iqtisadiyyat ancaq toydur. Televiziyada əsasən restoranların reklamları efirə verilir. Salonlar, geyim sənayesi ancaq toylara xidmət edir. Ölkənin iqtisadiyyatı inkişaf etdikcə bütün sahələr inkişaf edəcək. Bu, zəncirvari bir-birinə bağlıdır.

**Qurban Yaquboğlu: Azərbaycanın gələcək taleyi haqda nə düşünürsüz? Nikbinsiz, yoxsa...**

-Mən Azərbaycanın gələcəyini müsbət görürəm. Çünki Azərbaycan bütün dünyaya lazımdır.

**Rəqsanə Həsənova: Çox güclü qadınsınız. Aqil bəy ailə daxilində sizə nələrdə güzəşt edir?**

-Güzəştə həmişə mən getmişəm.

**Mövlud Mövlud: Axı siz azad qadınsınız...**

-Mən azad olub neyləmişəm, atam? Məni hansısa restoranda təkbaşına yeyib-içən görmüsünüz?

**Mövlud Mövlud: Bunu etmirsiniz, çünki içinizdən gəlmir.**

-Mən 50 yaşı adlamış qadınam, amma indiyə kimi ərimdən icazəsiz heç yerə gedə bilmərəm.

**Nərgiz Cavadzadə: Facebook statuslarını da məsləhətləşib yazırsınız?**

-Yox, yazıda elə deyil. Yazıda özümün senzuram var. Fikirləşirəm ki, yazdığımdan bizə nə zərbə dəyə bilər.

**Mövlud Mövlud: Amma İradə xanım, biz sizi azad qadın kimi təqdim etmək istəyirdik.**

-Kənardan elə görünür... İnanın, indiyə kimi pul saya bilmədiyimə görə mənə gülürlər. Anam mənə heç vaxt pul vermirdi. Tələbə vaxtı bütün tələbə təqaüdümü əlimdən alırdı. Ərə getdim, uzun müddət pul olmadı, pul olandan sonra da o pulu mən görmədim. Mənim heç vaxt pulum olmayıb. Pul olmasa azadlıq da yoxdu...

**Sevinc Fədai: Ən çox nəyə pul xərcləyirsiniz?**

-Kosmetikaya. Bahalı kosmetika işlədirəm. Çünki dərimə ziyan verən ucuz kosmetikadan qaçıram. Ola bilər çantanın ucuzunu alım, amma kosmetikaya çox pul xərcləyirəm.

**Rəqsanə Həsənova: Bizdə qadın yazarlar, publisistlər niyə yetişmir?**

-Publisistika xalqa yönəlik janr olduğundan orda nəsə demək və onun arxasında durmaq çox çətindir. Gərək balansı gözləyəsən. Xalqın sənə deyəcəyi sözlərə dözmək asan deyil. Ümumiyyətlə, qadınların ictimailəşməsi çox çətin prosesdir. Və bu bütün dünyada 19-cu əsrin sonlarında başlayıb. Çünki ictimailəşmək üçün ya hərbdə, ya dində, ya da dövlət siyasətində çıxışların olsun. Bunlar da qadınlara uzaq sahələrdir. Amma tarixdə məşhur siyasətçi qadınlar da olub. Onlar da kişi kimi siyasət yürütdüklərinə görə tarixdə qalıblar.

Bu subyektiv fikrimdir. Mən hesab edirəm qadınlardan heç vaxt böyük şair ola bilməz... Nahaq şeir yazırlar.

**Sevinc Fədai: Yalnız bizdə, yoxsa ümumiyyətlə?**

-Ümumiyyətlə... Amma bəzi istisnaları çıxmaq şərtilə... Kişilər çox istedadlıdır. Allah onları elə yaradıb. Qadın ona köməkçi vasitə kimi gəlib. İstisnalar həmişə mövcuddur, amma onlar ümumi qaydanı pozmur. Məsələn, yapon ədəbiyyatını iki qadın yaradıb.

Bizdə də qadın yaradıcılığı var: sayaçı nəğmələr, bayatılar... Amma ümumiyyətlə, qadın ədəbiyyatı zəifdir, sönükdür. Hətta oxuyanda bilirsən ki, bunu qadın yazıb. Kişi yazıda bütün müstəvilərdə yarada bilir. Amma qadın ancaq qadın kimi yazır.

Mənim qarşımı kəsən nüanslar olub, olur. Mən əvvəl atamı nəzərə alırdım, sonra ərim və atamı, indi də oğullarım... Hələ bununla belə deyirlər ki, azad təfəkkürlüyəm.

**Sevinc Fədai: Niyə az-az yazırsınız?**

-Elə bir dönəm vardı ki, hər həftə nəsə yazırdım. İndi özümü toparlaya bilmirəm.

**Nərgiz Cavadzadə: Mətbəxlə aranız necədir?**

-Əvvəl çox yaxşı, indi demək olar ki, mətbəxə girmirəm.

**Mövlud Mövlud: Qonaq sevənsiniz?**

-Sevdiyim qonaqları sevirəm. Yeni ailə quranda Aqillə harasa gedəndə deyirdi ki, qaşın açılsın, üzün gülsün, camaat səndən qorxur. İndi öyrəşib, bilir ki, kimdənsə xoşum gəlmirsə o adam da onu hiss edəcək.

**Mövlud Mövlud: Məmməd Arazın sözlərinə yazılmış hansı mahnıları sevirsiniz?**

-Böyük əksəriyyəti duyğuludur. Akif İslamzadənin ifasında "Mənim qəlbim", Brilliant Dadaşovanın ifasında "Dünya gözəl dünyadı" mahnısı çox gözəldir. Onun şən mahnılarında qəribə nisgil var. Bütün şeirlərindən ağrı süzülür...